**İQTİSADİ ƏMƏKDAŞLIQ KOMİSSİYASININ**

**IV İCLASI**

**ENERJİ SEKTORUNUN İNKİŞAFINDA ƏMƏKDAŞLIQ ÜZRƏ**

**TÖVSİYƏ QƏRARI**

1. Enerji sənaye və xidmət sahəsindəki hər məhsulun əhəmiyyətli elementi olduğu üçün enerji sektorunun səmərəli fəaliyyəti hər bir iqtisadiyyat üçün həyati əhəmiyyət kəsb edir. Bu baxımdan, ətraf mühitin müdafiəsi tələbləri nəzərə alınmaqla iqtisadi cəhətdən səmərəli və etibarlı enerji təminatı üçün strategiyanın inkişafı və tətbiqi, stabil iqtisadi inkişaf istiqamətində milli hədəflərin həyata keçirilməsi üçün fundamental ilkin şərtdir.

2. Üzv ölkələr özlərinin iqtisadi və enerji potensialına görə xeyli fərqlənirlər. Bura enerji resurslarının mövcudluğu, enerji təminatının müxtəlifliyi və daxili enerji bazarının və infrastrukturunun inkifaş dərəcəsini misal göstərmək olar. Üzv ölkələrdə kömür, neft və qazdan başlayaraq bərpaolunan enerji daxil olmaqla nüvə və hidroelektrik enerji mövcuddur.

3. Türkdilli ölkələrin dünya enerji bazarı sahəsindəki əhəmiyyəti, Xəzər dənizi hövzəsindəki neft və təbii qaz ehtiyatları nəzərə alınmaqla xüsusilə artmışdır. Perspektiv layihələrin inkişafı üzv ölkələr arasında enerji sahəsində koordinasiya fəaliyyətlərini və mümkün olduğunda ümumi strategiyaların formalaşdırılmasını tələb edir.

4. Türkdilli ölkələr enerji bazarının stabilliyi baxımından eyni məsələləri bölüşür (idxal və ixracın güvənliyi və artımı, enerji sektorunun modernləşdirilməsi tələbi, enerji sahəsində qənaəti çoxaltmaq və eneji istehsalı və istifadəsi ilə əlaqədar ətraf mühitin zəhərlənməsini azaltmaq)

5. Ənənəvi enerji resurslarının ən azı orta müddətli perspektivdə enerji sahəsində əsas və üstün rol oynayacağı gözlənildiyi üçün ənənəvi enerji daşıyıcıları sahəsində əməkdaşlıq öz önəmini saxlayacaqdır. Bu baxımdan enerji qənaəti və enerjinin səmərəliliyi sahəsində yüksək hədəflərə nail olunması, karbohidrogen yataqlarının inkişafı, ənənəvi enerji bazarında infrastrukturunun daha da təkmilləşdirilməsi üçün əlavə cəhdlər olunmalıdır,

6. Astanada keçiriləcək EXPO 2017 yaşıl iqtisadiyyat və alternative enerji mənbələrinin inkişafına həsr edilmişdir. Buna görə də dünyada, eləcə də TürkPA-ya üzv ölkələrində yaşıl enerjinin canlı və sürətli inkişafı gözlənilir. Bu baxımdan, Parlament Assambleyası TÜRKPA üzvü ölkələri arasında alternativ enerji mənbələrinin inkişafına həsr olunmuş praktiki əməkdaşlığın vacibliyini vurğulayır.

7. Bu çərçivədə, Parlament Assambleyası 11 fevral tarixində Bakıda qəbul edilmiş iqtisadi əməkdaşlıq sahəsində nəqliyyat kommunikasiyalarının rolu mövzusunda tövsiyə qərarını xatırladır və enerji resurslarının təhlükəsiz daşınması daxil olmaqla, regionda milli təhlükəsizlik kontekstində bütün nəqliyyat növlərinin təhlükəsizliyi üzrə koordinasiya fəaliyyətini dəstəkləyir.

**Yuxarıda qeyd edilənləri nəzərə alaraq, Parlament Assambleyası TÜRKPA üzvü ölkələrinin milli parlamentləri və üzv-dövlətlərin hökumətlərinə təklif edir**:

a) enerji qənaəti üzrə uzunmüddətli hədəflər müəyyənləşdirmək və müasir texnologiyanın səmərəli təqdimatını *həyata keçirmək*;
b) davam edən və proqnozlaşdırılan enerji hasilatının ətraf mühitə təsirini qiymətləndirmək və layihə sahələrində flora və faunanın qorunması üçün vaxtında *tədbirlər görmək*;
c) ətraf mühitlə bağlı narahatçılıq və enerji siyasətinin davamlılığının inteqrasiyası vasitəsilə enerji istismarı nəticəsində yaranan ekoloji problemləri *həll etmək*;

d) regional və eləcə də qlobal enerji təhlükəsizliyinin təmin edilməsi üçün ənənəvi enerji bazarı infrastrukturu kimi boru kəmərlərinin, çatdırılma üçün digər vasitələrin və təchizatın müntəzəm təkmilləşdirilməsi və diversifikasiyasına *diqqət yetirmək*;
e) qlobal enerji istehsalına öz töhfəsinin artırılması məqsədi ilə bərpa olunan enerji mənbələrinin (biokütlə, külək, günəş, termal) inkişafına *dəstək vermək*;
f) təhlükəsiz, davamlı və səmərəli enerji təchizatını təmin etmək məqsədi ilə təmiz və bərpa olunan enerji inkişafı üzrə tədqiqat və inkişaf (RND) səylərinə *diqqət yetirmək*;
g) birgə seminarlar və konfranslar keçirilməsi vasitəsilə Astanada keçiriləcək EXPO-2017 üçün dəstək nümayişi kimi müxtəlif tədbirlər və *aksiyalar keçirmək*;
h) EXPO-2017 üzv ölkələrinin səyləri fonunda bərpa olunan enerji mənbələrinin inkişafını *qeyd etmək*;
i) enerjinin inkişafı siyasətinə uyğunlaşdırılmış yanaşmanı təmin etmək, eləcə də bu sahədə daha yaxşı regional koordinasiya məqsədilə məlumat və təcrübəni *bölüşmək*;
j) türk strukturlarını cəlb etmək və  üzv dövlətlərin elm adamları arasında əməkdaşlığı və təcrübə mübadiləsini təşviq etməklə  enerji ilə bağlı informasiyanın toplanması, yayılması və mübadiləsini *təkmilləşdirmək*.
k) birgə layihələr, bilik və təcrübə mübadiləsinin inkişafı, bərpa olunan enerji mənbəyi üçün infrastruktur və avadanlıqların birgə istehsalı: müraciətləri və tədqiqat imkanlarının inkişaf üçün Türk Şurasının tərkibində daimi aparatının yaradılması faydalı olacağını nəzərə alaraq təcrübə, texniki bilik və ümumi bacarıqların inkişaf etdirilməsi üçün ciddi *addımlar atmaq*;